# Ədəbiyyat qəzeti

28 noyabr 2020-ci il 

*Tanınmış nasir, yazıçı-publisist Novruz Nəcəfoğlunun povest və hekayələrindən toplandığı "Köhnə kişilər" kitabı Rumıniyada nəşrə hazırlanıb. Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin iştirakıyla "Proza Scurta Contemrona / Opera Omnia" seriyasından nəşrə hazırlanan kitaba müəllifin "Yuxuya gedib gecə" povesti, "Dağlarda gəzinti", "Köhnə kişilər" və başqa 6 hekayəsi daxil edilib. Bildiririk ki, bu seriya Moldova və Rumıniya Yazıçılar Birliyinin ortaq layihəsidir, bu seriyadan nəşri nəzərdə tutulan bütün kitablar Rumıniyanın Yassı şəhərində, "Tipo Moldova" nəşriyyatında nəfis şəkildə nəşr edilir, həm Rumıniyanın, həm də Moldovanın kitab-ədəbiyyat mühitində yayılır.*




*212 səhifəlik kitabı rumın dilinə tanınmış rumın-moldovan yazıçısı, Moldova Yazıçılar Birliyinin katibi Nikolae Spetaru çevirib. Kitaba ön sözü Rumıniyanın və Moldovanın görkəmli ədibi və ictimai xadimi, "Mixay Eminesku. Milli Ensiklopedik lüğət" kimi findamental tədqiqatın müəllifi, akademik Mihai Cimpoi yazıb. "Ədəbiyyat qəzeti"nin oxucularına maraqlı olacaq deyə, akad. Cimpoinin yazdığı giriş yazısını diqqətinizə çatdırırıq.*